**“Süni intellekt dövründə insan hüquqları: imkanlar, risklər və məsuliyyətlər” mövzusuna həsr olunmuş Ombudsmanların Beynəlxalq Bakı Sammiti iştirakçılarının**

**B Ə Y A N N A M Ə S İ**

**Bakı şəhəri, 18 iyun 2026-cı il**

Biz, 18–19 iyun 2026-cı il tarixlərində Bakı şəhərində keçirilmiş “Süni intellekt dövründə insan hüquqları: imkanlar, risklər və məsuliyyətlər” mövzusuna həsr olunmuş Ombudsmanların Beynəlxalq Bakı Sammitinin iştirakçıları olaraq,

Ümumdünya İnsan Hüquqları Bəyannaməsini, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktı, Uşaq Hüquqları haqqında Konvensiyanı, Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanı, BMT Baş Assambleyasının “Dayanıqlı inkişaf naminə təhlükəsiz, etibarlı və etimada layiq süni intellekt sistemlərinin imkanlarından istifadə edilməsi haqqında” qətnaməsini, digər beynəlxalq və regional sənədləri rəhbər tutaraq;

“Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası”, “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası”, “Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya”, “Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı” və digər strateji sənədlərin süni intellekt texnologiyalarının təhlükəsiz, etik, şəffaf və insan hüquqlarına əsaslanan prinsiplər çərçivəsində tətbiqinin təşviqinə, innovativ və inklüziv inkişafın dəstəklənməsinə, dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə və rəqəmsal transformasiyanın sürətləndirilməsinə mühüm töhfə verdiyini təqdir edərək;

Bütün insan hüquqlarının universal, bölünməz, qarşılıqlı əlaqəli və qarşılıqlı asılı olduğunu, insanların real həyatda malik olduqları hüquqların rəqəmsal məkanda da tam şəkildə qorunmalı olduğunu bir daha bəyan edərək;

Süni intellekt texnologiyalarının insan rifahının yüksəldilməsi, keyfiyyətli təhsil və səhiyyəyə çıxışın genişləndirilməsi, sosial müdafiə mexanizmlərinin təkmilləşdirilməsi, innovasiyaların təşviqi və Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi baxımından mühüm imkanlar yaratdığını qəbul edərək;

Süni intellekt sistemlərinin qeyri-şəffaf istifadəsinin insan ləyaqətinə, bərabərlik prinsipinə, şəxsi həyatın toxunulmazlığına, məlumatların mühafizəsinə, ifadə azadlığına, əmək hüquqlarına, demokratik iştirakçılığa və digər fundamental hüquq və azadlıqlara mənfi təsir göstərə biləcəyindən narahatlığımızı ifadə edərək;

Alqoritmik ayrı-seçkilik, dezinformasiya, rəqəmsal manipulyasiya və kibertəhlükələr müasir dövrdə insan hüquqlarının müdafiəsi üçün ciddi çağırışlar yaratdığını vurğulayaraq;

Milli İnsan Hüquqları Təsisatlarının, o cümlədən Ombudsmanların süni intellekt texnologiyalarının insan hüquqlarına təsirinin monitorinqi, pozulmuş hüquqların bərpası, maarifləndirmə fəaliyyətinin həyata keçirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi sahəsində əhəmiyyətli rolunu nəzərə alaraq;

Süni intellektin səmərəli tətbiqi yalnız dövlətlərin deyil, beynəlxalq təşkilatların, milli insan hüquqları təsisatlarının və Ombudsmanların, vətəndaş cəmiyyəti institutlarının, akademik dairələrin və özəl sektorun birgə əməkdaşlığı əsasında mümkün olduğunu vurğulayaraq;

Ombudsmanların Beynəlxalq Bakı Sammitinin ombudsmanlar, milli insan hüquqları təsisatları, beynəlxalq təşkilatlar, dövlət qurumları, akademik dairələr, biznes nümayəndələri və vətəndaş cəmiyyəti institutları arasında qlobal çağırışların müzakirəsi, qabaqcıl təcrübə mübadiləsi və yeni əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsi baxımından mühüm platforma rolunu oynadığını ön plana çəkərək,

Aşağıdakıları bəyan edirik:

- Süni intellekt texnologiyalarının hazırlanması, tətbiqi və istifadəsi zamanı fundamental insan hüquq və azadlıqlarının, insan ləyaqətinin qorunmasını əsas prioritet hesab edir, bu texnologiyaların beynəlxalq hüquqa və etik prinsiplərə uyğun şəkildə idarə olunmasının əhəmiyyətini vurğulayırıq;
- Dövlətləri insan hüquqlarına əsaslanan, təhlükəsiz, etibarlı, şəffaf, hesabatlı və inklüziv süni intellekt idarəetmə mexanizmlərinin formalaşdırılmasını, bu prosesdə çoxtərəfli iştirakın, məlumatların

məxfiliyinin qorunmasının, alqoritmik qərəzliliyin qarşısının alınmasının və effektiv hüquqi nəzarət mexanizmlərinin təmin edilməsini təşviq etməyə çağırırıq;

- Süni intellekt sistemlərinin hazırlanması və tətbiqi prosesində insan hüquqlarına təsirin qiymətləndirilməsi mexanizmlərinin tətbiqini zəruriliyini vurğulayırıq;
- İnsanların hüquq və azadlıqlarına təsir göstərən qərarların qəbulunda insan nəzarətinin səmərəli şəkildə təmin edilməsinin vacibliyini diqqətə çatdırırıq;
- Şəxsi məlumatların mühafizəsinin, rəqəmsal məxfiliyin və kibertəhlükəsizliyin gücləndirilməsini süni intellekt dövrünün əsas prioritetlərindən biri olduğunu vurğulayır, bu sahədə milli və beynəlxalq səviyyədə effektiv hüquqi, texniki və institusional tədbirlərin görülməsini dəstəkləyirik;
- Alqoritmik ayrı-seçkiliyin və qərəzliliyin qarşısının alınması məqsədilə müstəqil monitorinq, audit və hesabatlılıq mexanizmlərinin inkişaf etdirilməsinin vacibliyini vurğulayırıq;
- Rəqəmsal mühitdə uşaqların, qadınların, əlilliyi olan şəxslərin, yaşlı insanların, miqrantların və digər həssas qrupların hüquqlarının müdafiəsinə xüsusi diqqət yetirilməsinə çağırırıq;
- Rəqəmsal savadlılığın, media savadlılığının və süni intellekt texnologiyalarından məsuliyyətli istifadəyə dair maarifləndirmənin genişləndirilməsinin vacibliyini diqqətə çatdırırıq;
- Dezinformasiya, nifrət nitqi, rəqəmsal manipulyasiya və digər zərərli onlayn fəaliyyətlərlə mübarizənin gücləndirilməsini zəruri hesab edirik;
- Ombudsman təsisatları və milli insan hüquqları institutları arasında süni intellekt və insan hüquqları sahəsində əməkdaşlığın, bilik və təcrübə mübadiləsinin genişləndirilməsinin əhəmiyyətini vurğulayırıq;
- Özəl sektoru süni intellekt sistemlərinin hazırlanması və tətbiqi zamanı insan hüquq və azadlıqlarına hörmət etməyə, etik prinsiplərə əməl etməyə və şəffaflığı təmin etməyə çağırırıq;
- Süni intellekt texnologiyalarının sosial rifahın yüksəldilməsi, inklüziv inkişafın təşviqi, əlçatanlığın artırılması və Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə töhfə verməsinin əhəmiyyətini vurğulayırıq;
- Süni intellektin insan hüquqlarına təsirləri ilə bağlı beynəlxalq əməkdaşlığın, çoxtərəfli dialoqun, bilik və qabaqcıl təcrübə mübadiləsinin genişləndirilməsini təşviq edirik;

- Ombudsman və milli insan hüquqları institutlarının süni intellekt texnologiyalarının insan hüquqlarına təsirinin müstəqil monitorinqi, insan hüquqları üzrə risklərin qiymətləndirilməsi, qanunvericiliyin təhlili, habelə fərdlərin effektiv müdafiə vasitələrinə çıxışının təşviqi sahəsində rolunun və mandatının gücləndirilməsini dəstəkləyirik.

Biz bir daha bəyan edirik ki, rəqəmsal transformasiya və süni intellekt dövründə insan hüquqlarının qorunması və təşviqi dövlətlərin, beynəlxalq təşkilatların, Ombudsman və milli insan hüquqları təsisatlarının, vətəndaş cəmiyyəti institutlarının, akademik dairələrin, özəl sektorun və digər aidiyyəti tərəflərin ortaq məsuliyyətidir.

Bu Sammit çərçivəsində aparılmış müzakirələrin və irəli sürülmüş tövsiyələrin insan hüquqları və süni intellekt sahəsində beynəlxalq əməkdaşlığın daha da gücləndirilməsinə, qabaqcıl təcrübə mübadiləsinə, insan hüquqlarına əsaslanan rəqəmsal idarəetmənin təşviqinə və müasir çağırışlara cavab verən effektiv hüquqi və institusional mexanizmlərin inkişaf etdirilməsinə mühüm töhfə verəcəyinə əminliyimizi ifadə edirik.

“Süni intellekt dövründə insan hüquqları: imkanlar, risklər və məsuliyyətlər” mövzusuna həsr olunmuş Ombudsmanların Beynəlxalq Bakı Sammitinin təşkilinə görə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) minnətdarlığımızı bildiririk.